# Xalqa həsr olunan illər

Heydər Əliyev Mərkəzində ümummilli liderin 90 illik yubileyi ilə əlaqədar keçirilən növbəti tədbirdə rayon icra hakimiyyətindən, maliyyə idarəsindən, təhsil şöbəsindən, ƏSMM-dən, meşə təsərrüfatı idarəsindən, GEM-dən, məşğulluq mərkəzindən, DSMF-dan, səhiyyədən, poçtdan, gənclər və idman idarəsindən, turizm və otelçilik üzrə peşə tədris mərkəzindən, peşə məktəbindən və digər idarə və təşkilatlardan nümayəndələr iştirak edirdilər.

Qonaqlar ümumilli liderin Mərkəzdəki büstü önünə tər güllər qoyaraq onun əziz xatirəsini böyük ehtiramla yad etdilər.

Tədbiri Heydər Əliyev Mərkəzinin direktoru Xəyalə İsayeva açaraq qonaqları salamladı, tədbirin mahiyyəti haqqında məlumat verərək, «Xalqa həsr olunan illər» mövzusunda məruzə ilə çıxış etdi. Dərin ictimai-siyasi və iqtisadi böhranla üzləşdiyimiz bir dövrdə, idarəetmə qabiliyyəti olmayanlar Azərbaycanın dövlət müstəqilliyini, çətinliklə nail olduğu azadlıq və suverenliyini təhlükə altında qoyduğu bir vaxta, həmin ilin yayında tarixi yaratmağa və hadisələrin axarını dəyişməyə qadir olan siyasət ustası, ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsi xalqımızı növbəti fəlakətdən qurtardı. Onun böyüklüyü, siyasi gücü və nüfuzu Azərbaycana can verdi, dövlətimizi yaşatdı. O, bu xalqa rəhbərliyə ikinci dəfə xalqın öz içindən, xalqın təkidli istəyi ilə gəlmişdi. Missiyası onu ucaltmaq, azadlığa həmişəlik qovuşdurmaq idi. Müdrik xalqımız yenidən sınağa çəkildiyi müthiş 1993-cü ildə həmrəylik və qətiyyət nümayiş etdirərək təcrübəli siyasətçi, dəmir iradəli Heydər Əliyevi hakimiyyətə gətirməsəydi yəqin ki, müstəqilliyimizin taleyi uğursuzluqla nəticələnəcəkdi. Heydər Əliyevin hakimiyyətə gəlişi ermənistanla müharibə vəziyyətində olan Azərbaycan üçün ikinci cəbhə açaraq onu parçalayıb məhv etmək istəyən qüvvələrin təhriki ilə törədilən vətəndaş müharibəsindən, etnik əlamətə görə parçalanıb yox olmaq təhlükəsindən, separatizmdən, torpaqlarımızın bir-birinin ardınca işğal edilməsindən, saysız-hesabsız insan itkilərindən, Azərbaycanı beynəlxalq aləmdən, türk dünyasından təcrid olunmaq təhlükəsindən, zorakı yolla hakimiyyəti dəyişmək ənənəsindən, özbaşınalıqlardan, qanunsuzluqlardan və daha neçə-neçə bədbəxtçiliklərdən xilas etdi. Dünya şöhrətli öndərimizin Azərbaycana rəhbərliyi dövründə genişmiqyaslı qaynar fəaliyyəti nəticəsində dövlətimiz quruldu və mühüm əhəmiyyətə malik olan möhtəşəm işlər həyata keçirildi. 1994-cü ilin 20 sentyabrında «Əsrin müqaviləsi» imzalandı, 1995-ci ilin 12 noyabrında yeni Konstitutsiyamız qəbul olundu, Azərbaycan dünyanın nüfuzlu təşkilatlarına üzv oldu. İndi Azərbaycan müstəqil, demokratik, müasir, dünyada sözünü deyən bir ölkədir.

Bu dahi şəxsiyyət Azərbaycan gənclərinə çox arxalanırdı. Bu gün biz gənclər bizə yaradılan belə yüksək şəraitə, imkanlara görə özümüzü doğrultmalıyıq. Hər birimiz ümummilli liderdən örnək götürməliyik. Onun həyatı bizim üçün nümunə olmalıdır. İstər siyasi arenada, istər sosial həyatda, istər ailədə bu müdrik siyasətçi hər bir gəncin idealına çevrilməlidir. Onun hər baxışı, hər sözü, hər bir addımı böyük məna kəsb edirdi. Və biz gənclər bu mənanı dərk etməliyik. Bunun üçün onun əvəzolunmaz, zəngin irsini mükəmməl öyrənməliyik və biz də onu özümüzdən sonrakı gənc nəslə çatdrmalıyıq.

Təhsil şöbəsinin metodkabinetinin müdiri Arifə Bayramova çıxış edərək bildirdi ki, ümumilli liderin elm və təhsil sahəsində apardığı məqsədyönlü tədbirlər müstəqil Azərbaycan Respublikasının uğurları üçün geniş zəmin və şərait yaratmışdır. Böyük maarifpərvər, ümummilli lider Heydər Əliyev bütün şüurlu həyatı boyu elm və təhsilimizin yorulmaz fədaisi, təəssübkeşi və himayədarı olmuşdur.

Peşə məktəbinin müəllimi Lətifə Əsgərova çıxış edərək qeyd etdi ki, ulu öndərin zəngin irsi hər kəsə yaşından asılı olmayaraq çox maraqlıdır. Bu irsin təbliği hər bir Azərbaycan vətəndaşının borcudur. Ümummilli liderə həsr olunan tədbirlərin keçirilməsi gənc nəslin vətənpərvər ruhda tərbiyələnməsi üçün çox əhəmiyyətlidir.

Tədbirin sonunda qonaqlar ulu öndərin həyatını əks etdirən «Böyük ömrün anları» adlı sənədli filmə tamaşa etdilər.

**Kəmalə QASIMOVA,**
**Heydər Əliyev Mərkəzinin baş fond mühafizi.**

# Vətən naminə yaşanan ömür

Bildiyimiz kimi respublikamızda ulu öndər Heydər Əliyev və Zərifə xanım Əliyevanın 90 illik yubileyləri-lə əlaqədar olaraq genişmiqyaslı tədbirlər keçirilir. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan naminə, xalq, vətən yolunda nələr etdiyinin canlı şahidləriyik. Bu gün belə bir dahi insan həyatda olmasa da, onun gördüyü işlər göz qarşısındadır.

Biz Qəbələ Rayon Tarix-Diyarşünaslıq muzeyinin kollektivi başda direktor Xalis Məmmədov olmaqla Heydər Əliyev və Zərifə xanım Əliyevanın 90 illik yubileyləri münasibəti ilə Heydər Əliyev Mərkəzində olduq. Ümumilli liderin büstü önünə çiçəklər qoyduqdan sonra geniş məruzələr, çıxışlar oldu. Muzeyin direktoru Xalis Məmmədov, əməkdaşlardan Birilyand Məlikova, İlhamə Seyidova ulu öndərimiz haqqında geniş şəkildə çıxışlar etdilər. Mərkəzin əməkdaşı Sədaqət xanım ekspozisiya üzrə ekskursiya təşkil etdi. Kollektiv surətdə ümumi tanışlıqdan sonra xatirə şəkli çəkildi. Muzeyin kiçik elmi işçisi İlhamə Seyidova kollektiv adından rəy kitabına ürək sözlərini yazdı.

Hal-hazırda bu istiqamətdə tədbirlər geniş vüsət almışdır. Qəbələ rayon Tarix-Diyarşünaslıq muzeyində də belə tədbirlər keçirilməkdə davam edir.

**Gülər XƏLİLOVA,**
**muzeyin əməkdaşı.**

# «Azərbaycan xalqının xilaskarı»

Əsrlər keçəcək, qərinələr ötəcək, onun ideyaları ilə həyata keçən möhtəşəm layihələr xalqımıza firavanlıq gətirəcək, parlaq gələcək bəxş edəcək. Möhkəm təməl üstündə qüdrətli bir şəxsiyyətin əli ilə qurulan bu dövlət möhkəmlənəcək, dünyanın inkişaf edən güclü dövlətlərindən birinə çevriləcəkdir.

May ayının 10-u 2013-cü il tarixində Azərbaycan Respublikasının ümummilli lideri —bütün dövrlərdə planetimizin ən müdrik dövlət başçısı və görkəmli siyasətçi Heydər Əliyevin anadan olmasının 90 illiyi tamam oldu. Bununla əlaqədar hələ də Heydər Əliyev Mərkəzində silsilə tədbirlər keçirilir. Bu yaxınlarda Mərkəzdə rayonun ümumitəhsil məktəblərinin şagirdləri arasında bilik yarışı keçirildi. Beş komandada yarışan məktəblilər ictimai-siyasi mövzu üzrə suallara cavab verdilər. Ən çox bal toplayan Qəbələ şəhər 1 saylı tam orta məktəbin "Qəbələ" komandası I yerin qalibi oldu. Komanda iştirakçıları Heydər Əliyev Mərkəzinin fəxri fərman və hədiyyələri ilə mükafatlandırıldılar. Tədbirdə Mərkəz tərəfindən ümumtəhsil məktəbləri arasında "Heydər Əliyev və Azərbaycan" mövzusunda keçirilən inşa müsabiqəsinin qalibləri elan olundu. I yerin qalibi Qəbələ şəhər 4 saylı tam orta məktəbin IX sinif şagirdi Aytac Mirzəhüseynli, II yerin qalibi Qəbələ şəhər 5 saylı tam orta məktəbin X sinif şagirdi Nərmin Ağamirzəyeva, III yerin qalibi Yenikənd tam orta məktəbinin VIII sinif şagirdi Şöhrət Cənnətov Heydər Əliyev Mərkəzinin fəxri fərman və hədiyyələri ilə mükafatlandırıldılar. Yarış iştirakçıları ümummilli liderin həyat və fəaliyyətindən bəhs edən «Ömrün zirvəsinə doğru» sənədli filminə baxdılar.

**Şöhrət SÜLEYMANOV.**

# «Heydər Əliyev və Azərbaycan gəncliyi» mövzusunda dəyirmi masa

Qəbələ Rayon Gənclər və İdman İdarəsi Azərbaycanın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi ilə əlaqədar müvafiq tədbirlər planına əsasən Qəbələ Mədəniyyət Mərkəzində «Heydər Əliyev və Azərbaycan gəncliyi» mövzusunda dəyirmi masa keçirmişdir. Tədbirdə fəal gənclər, Turizm və Otelçilik üzrə Peşə Tədrisi Mərkəzinin müəllim və şagirdləri, həmçinin FHN-nin hərbi alayının zabit və əsgər heyəti iştirak etmişdir.

Tədbir iştirakçıları ilk öncə ulu öndərin abidəsi önünə gül qoyaraq onun xatirəsini yad etmişlər. Sonra Mədəniyyət Mərkəzinin konfrans zalında davam edən tədbiri giriş sözü ilə açan rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyevin ölkə həyatında hər bir sahədə olduğu kimi gənclərlə iş sahəsində gördüyü işlərdən, Dövlət Gənclər Siyasəti Haqqında Qanunun Azərbaycan gəncliyinin inkişafına sürətli təkan verdiyindən, gənclərin məşğulluğunun, sosial müdafiəsinin təmin olunmasını stimullaşdırmasından danışaraq uğurlu siyasətinin bu gün respublika Prezidenti cənab İlham Əliyev tərəfindən inamla aparıldığı haqda məruzə etmişdir.

Daha sonra məruzə ətrafında YAP Qəbələ Rayon Təşkilatı aparatının rəhbəri Elçin Tağıyev, YAP Qəbələ Rayon Gənclər Birliyinin sədri Ramil Qəribov, təhsil şöbəsi metodkabinetinin müdiri Arifə Bayramova çıxış edərək ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı doğma Azərbaycanımızda sabitliyin və dinamikliyin, sosial-iqtisadi inkişafın, elm və təhsilin uğurlu inkişafından danışdılar.

Tədbirin sonunda ümummilli lider Heydər Əliyevin həyatından bəhs edən «Böyük ömrün anları» filminə baxış keçirilmişdir.

**Mübariz AĞAYEV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**